# Qəbələ: 2012-ci ili yuksək sosial-iqtisadi göstəricilərlə yola saldı

**2012**-ci il arxada qaldı. Yola saldığımız köhnə il qəbələlilərə ən uğurlu və yaddaqalan illərdən biri oldu. Təhlillər göstərir ki, rayonda başlanan quruculuq işlərinin miqyası genişlənmiş, iqtisadiyyatın möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Rayonumuzun sosial həyatında və iqtisadiyyatında əvvəlki illərlə müqayisədə 2012-ci ildə nail olunmuş ciddi dönüş dəfələrlə artmışdır. Statistik rəqəmlərə görə ötən ilin yanvar-sentyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kapitala qoyulan investisiyanın həcmi 14 faiz, kənd təsərrüfatı məhsullarının həcmi 3 faiz, tikintidə 14 faiz, adambaşına düşən ümumi məhsul buraxılışı 6 faiz artmışdır.





Rayon ərazisində fəaliyyət göstərən tikinti müəssisələri qeyd olunan müddət ərzində 15.576 min manatlıq tikinti-quraşdırma işləri görmüşdür ki, bu da nəzərdə tutulduğundan 14 faiz çoxdur.

Rayon əhalisinin başlıca məşğuliyyəti olan heyvandarlığın inkişafında və heyvandarlıq məhsulları istehsalının artımında əldə edilən nailiyyətlər xüsusilə diqqəti cəlb edir.

Ötən ilin yanvar ayından oktyabr ayınadək əvvəlki ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 85 ton, süd istehsalı 128 ton, yumurta istehsalı 137 min ədəd, yun istehsalı 6 ton artırılmışdır. İribuynuzlu mal-qaranın sayı 134 baş, qoyun və keçilərin sayı 559 baş, quşların sayı 10178 baş artırılmışdır. Qəbələ şəhərində, qəsəbə və kəndlərdə genişmiqyasıl abadlıq və quruculuq işləri müvəffəqiyyətlə davam etdirilmişdir. Şəhərin İ. Qutqaşınlı, Səməd Vurğun, Zərifə Əliyeva, Nizami küçələrində abadlıq və yenidənqurma işləri başa çatdırılmış, Zərifə Əliyeva küçəsində, Vəndam qəsəbəsindən keçən magistral avtomobil yolunun hər iki tərəfində, Nic qəsəbəsinin mərkəzi küçəsində və qəsəbə parkında isə tikinti və abadlıq işləri aparılmışdır.

Ötən il əhalinin maddi durumu yüksəlişinin əyani göstəricisi olan fərdi ev və mənzil tikintisi daha da genişlənmişdir. Şəhərdə, Vəndam qəsəbəsində, Yeni Dızaxlı, Soltannuxa, Əmirvan, Zalam, Bayramkoxalı və digər kəndlərdə yüzlərlə çoxmənzilli binalar inşa edilib istifadəyə verilmişdir. Minik avtomobilləri alanların sayı əvvəlki ilə görə 2 dəfə artmışdır. Hazırda rayon əhalisinin 70-80 faizi öz şəxsi və dəbdə olan avtomobillərindən istifadə edir.

2011-ci ildən başlanmış Tövlə kəndində Nic qəsəbəsində, Solqıca kəndində Topbağ kəndində bütövlükdə 700 şagird yerlik məktəb binaları, Bum qəsəbəsində uşaq bağçası, şəhərdə Milli Təhlükəsizlik Nazirliyinin Rayon bölməsi üçün inzibati bina tikilib istifadəyə verilmişdir. Qəbələ şəhərindəki mədəniyyət mərkəzində, Cuxur Qəbələ kəndindəki oteldə, Yengicə kəndindəki «İstisu» sağlamlıq mərkəzinin yeni korpusunda, «ASPİ-AQRO» MMC-nin, Qaradeyn kəndindəki şərab emalı zavodunda, Qəbələ Şəhər Məscidində tikinti işləri demək olar ki, tam başa çatmışdır.

2012-ci ildə bundan başqa bir sıra çox mühüm tikintilərin təməli qoyulmuşdur. Qəbələ şəhərində futbol akademiyasının, stadionlar kompleksinin, «Karvansaray» otel kompleksinin, «Qəbələ Konqres Mərkəzi»nin, atçılıq kompleksinin, Bum qəsəbəsində stend və ox atıcılığı kompleksinin tikintisinə başlanmış və hazırda burada tikinti işləri davam etdirilir. Duruca müvəqqəti yaşayış ərazisində «Kanatyolun» və «Tufan» dağxizək yay-qış istirahət kompleksinin tikintilərini bu il başa çatdırmaq və turistlərin ixtiyarına verilməsi nəzərdə tutulub.

Ötən ilin doqquz ayı ərzində Qəbələdən Beynəlxalq hava limanına gedən 22 kilometr magistral yol yenidən qurulmuş, Səməd Vurğun, Zərifə Əliyeva küçələrinə asfalt döşənmişdir. 11 saylı yol istismar idarəsinin kollektivi də yaxşı işləmişdir. Adı çəkilən istismar idarəsi tərəfindən respublika əhəmiyyətli avtomobil yollarında 214,9 min manatlıq, yerli əhəmiyyətli yollarda isə 214,6 min manatlıq cari təmir və yolların abadlaşdırılması işləri görmüşdür.

Əhalinin təbii qazla sabit təminatı sahəsində də bir sıra tədbirlər həyata keçirilmişdir. Səməd Vurğun, Nizami, 28 May və Zərifə Əliyeva küçələrində aparılan abadlıq işləri ilə əlaqədar polad boru ilə ümumilikdə 1.048 paqon metr, şəhərin ayrı-ayrı küçələrində və kəndlərdə 748,5 paqonmetr korroziyaya uğramış qaz xətləri yeni borularla əvəz edilmişdir.

Vəndam, Bum və Nic qəsəbələrində əhalini qazla təmin etmək məqsədilə müxtəlif diametrli borularla ümumilikdə 18.040 paqonmetr daşıyıcı qaz xətləri çəkilmişdir.

İçməli su təminatı sahəsindəki çatışmazlıqların aradan qaldırılması və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində çox vacib tədbirlər həyata keçirilməyə başlanmışdır, 6 ədəd subartezian quyusu qazılmış, 10 ədəd müxtəlif su tutumuna malik su anbarları və laboratoriya binası tikilmişdir.

Ötən ilin doqquz ayı ərzində Qəbələ elektrik şəbəkəsi rayonda hava xəttlərinin dəyişdirilməsində və mövcud hava xəttlərinin cari təmir edilməsində çox iş görmüşdür. Təkcə Qəbələ şəhərində 5,25 kilometr məsafədə 0,4 və 0,22 kv-luq hava xətti SİP kabel xətti ilə əvəz edilmiş və 42 ədəd transformator cari və əsaslı təmir olunmuşdur.

Qəbələlilər möhtərəm Prezidentimiz İlham Əliyevi əmin edirlər ki, onlar 2012-ci ildə olduğu kimi, 2013-cü ildə də yüksək nailiyyətlərlə başa vurmaq üçün əllərindən gələni əsirgəməyəcəklər.

**Aslan CƏLİLOV.**
**Fotolar S. Umuyevindir.**

# Doğma ölkəmizdə

(Əvvəli 3-cü səhifədə).

## Yaşayış binalarının su və kanalizasiya sistemləri "Azərsu" ASC-nin balansına keçib

Ölkənin şəhər və rayonlarında çoxmənzilli yaşayış binalarının daxili su təchizatı və kanalizasiya sistemləri 2012-ci il dekabr ayının 21-dən baş nazirin birinci müavini Yaqub Eyyubovun imzaladığı sərəncamla "Azərsu" ASC-nin balansına verilib.

## Əhalinin hər nəfərinə düşən gəlirlər 12,2 faiz artıb

Ötən ilin yanvar-noyabr aylarında əhalinin hər bir nəfərinə düşən gəlirləri 2011-ci ilin müvafiq dövrünə nisbətən 12,2 faiz artaraq 3260,5 manat və ya orta hesabla ayda 296,4 manat təşkil etmişdir.

Dövlət Statistika Komitəsindən verilən məlumatda bildirilir ki, qeyd olunan dövr ərzində ölkə əhalisi tərəfindən əldə edilmiş 29,9 milyard manatlıq gəlirin 64 faizi son istehlak xərclərinə, 8,3 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının, 1,6 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 26,1 faizi isə yığıma yönəldilmişdir. Əhalinin sərəncamında qalan gəlirləri 27,4 milyard manat təşkil etməklə 2011-ci ilin eyni dövrünə nisbətən 14 faiz artmışdır. Əhalinin banklarda olan əmanətlərinin həcmi də ötən ilin eyni dövrü ilə müqayisədə 27,6 faiz artaraq 4 milyard 689,7 milyon manata çatmışdır.

## Ötən il Mərkəzi Bankın valyuta ehtiyatları 12 faiz çoxalıb

Azərbaycan Milli Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 2013-cü il yanvarın 1-nə 11 milyard 694,8 milyon ABŞ dolları təşkil edib. Bu da ötən il yanvarın 1-nə nisbətən 1 milyard 213,3 milyon dollar və ya 11,6 faiz çoxdur. Təkcə dekabr ayında AMB-nin rəsmi valyuta ehtiyatları 8,8 milyon dollar və ya 0,8 faiz artıb.